Azərbaycan.-2024.- 23 oktyabr (№ 233).- S.2.

# Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi emblemi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1."Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi emblemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi embleminin təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 oktyabr 2024-cü il*

***Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəsmi emblemi haqqında

## ƏSASNAMƏ

1. Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin (bundan sonra Agentlik) rəsmi emblemi Agentliyin rəmzidir. Rəsmi emblem Agentliyin hər bir əməkdaşına Agentliyin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə öz vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək borcunu xatırladır.

2. Agentliyin rəsmi emblemi Agentlik əməkdaşlarının, həmçinin silah, xüsusi vasitə, texnika və digər əmlakın Agentliyə mənsubiyyətini bildirən nişandır.

3. Agentliyin rəsmi emblemi Agentliyin hərbi qulluqçularının geyim formasında və fərqlənmə nişanlarında yerləşdirilir. Agentliyin rəsmi emblemi onun blanklarında, inzibati binalarının adı göstərilən lövhələrində yerləşdirilə bilər.

4.Agentliyin rəsmi embleminin təsvirindən istifadəyə aşağıdakı hallarda yol verilir:

4.1. Agentliyin çap məhsullarında, kino, video, fotomateriallarında;

4.2. Agentliyin sifarişi ilə hazırlanan reklam-informasiya məhsullarında (bukletlər, təqvimlər, nişanlar, vımpellər, saatlar, medalyonlar, dəftərxana ləvazimatları, suvenirlər və digər məhsullar).